# SİPƏR

"Azərbaycan Ordusu"
qəzetinin xüsusi buraxılışı

mod.gov.az

03'
26
№ 1 (5)

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Orqanı




Azərbaycan Ordusunda kibertəhlükəsizlik

Ordu və zəka: yeni model hərbi xidmət

Hərbi Hava Qüvvələri 107 il

Təhsil sistemi ordunun sütunudur

**KİBER MƏKAN NƏDİR?**


KİBERMƏKAN
YENİ DÖYÜŞ MEYDANI





## Redaksiyadan

Dəyərli oxucu!

Azərbaycan Xalq Cümhuriyyəti dövründə əsası qoyulan milli ordu quruculuğu müstəqilliyini yenidən qazanan ölkəmizdə tarixi varislik prinsipi əsasında müasir mərhələyə qədəm qoydu.

Ölkənin suverenliyinin, müstəqilliyinin, müdafiə və təhlükəsizliyinin təminatçısı olan Azərbaycan Ordusunda vahid komandanlığın yaradılması, ordumuzun nizami ordu kimi formalaşması və hərbi quruculuq məsələlərinin prioritet kimi önə çəkilməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin atdığı cəsarətli addımlarının nəticəsidir. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ordumuz dünya orduları ilə müqayisə ediləcək səviyyəyə çatdırılıb. Döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, ordunun dövrün texnoloji tələblərinə də cavab verməsi istiqamətində müvafiq addımlar atılır.

Müasir dövrdə müharibələrin xarakteri köklü şəkildə dəyişərək klassik döyüş meydanları ilə yanaşı, kibermekan və informasiya mühiti də strateji qarşıdurmanın əsas istiqamətlərindən birinə çevrilir. Artıq dövlətlərin təhlükəsizliyinə təsir göstərən risklər təkcə fiziki sərhədlərlə məhdudlaşmır; mühüm infrastrukturun, rabitə şəbəkələrinin, idarəetmə sistemlərinin, müdafiə sənayesinin rəqəmsal resurslarının və məlumat bazalarının qorunması milli təhlükəsizlik məsələsi kimi ön plana çıxır. Bu baxımdan kibertəhlükəsizlik, informasiya qarşıdurması və süni intellektə əsaslanan texnologiyalar müdafiə siyasətinin ayrılmaz tərkib hissəsi kimi önə çıxır.

Xüsusilə hərbi strukturlar üçün kibertəhlükəsizlik yalnız texniki məsələ deyil, döyüş qabiliyyətinin, əməliyyatların davamlılığının, vahid komandanlığın effektivliyinin və qərar qəbuletmə prosesinin təhlükəsizliyinin təminatıdır. Kiberhücumlar nəticəsində rabitənin sıradan çıxarılması, informasiya sızmaları, idarəetmə sistemlərinə müdaxilə, peyk və müşahidə məlumatlarının pozulması, eləcə də dezinformasiya kampaniyaları real döyüş əməliyyatlarının gedişinə birbaşa təsir göstərə bilir. İnformasiya qarşıdurması isə ictimai rəyin yönləndirilməsi, psixoloji təsir mexanizmləri, saxta xəbərlər, manipulyativ məzmun və sosial şəbəkələr üzərindən aparılan koordinasiyalı hücumlar vasitəsilə dövlətlərin daxili sabitliyinə və beynəlxalq mövqeyinə zərbə vurmaq məqsədi daşıyır.

Azərbaycan Ordusunda müasir çağırışlara uyğun olaraq hərbi idarəetmə, texniki təminat, rəqəmsal təhlükəsizlik və kadr hazırlığı sahələri davamlı inkişaf etdirilir. Bu istiqamətdə aparılan tədbirlər nəticəsində ordumuzun müdafiə potensialı yüksəlir, yeni texnologiyaların tətbiqi genişlənir, şəxsi heyətin bilik və bacarıqları daim təkmilləşdirilir.

“Azərbaycan Ordusu” qəzetinin xüsusi buraxılışı olan “Sipər” jurnalının bu nömrəsində kibertəhlükəsizlik, informasiya qarşıdurması və süni intellekt mövzularına həsr olunan materiallar oxuculara təqdim edilir. Məqsədimiz rəqəmsal dünyanın aktual təhlükələri, mühafizə mexanizmləri və gələcək trendlərini daha aydın şəkildə çatdırmaqdır.

“Azərbaycan Ordusu” qəzetinin redaksiyası adından Azərbaycan Respublikasının müdafiə potensialının güclənməsi naminə şanlı ordumuzun şəxsi heyətinə müqəddəs və şərəfli xidmətində uğurlar arzulayırıq.

Azərbaycan Ordusunda kibertəhlükəsizlik 6





İnformasiya cəbhəsində də qalibik 14

Psixoloji kəşfiyyat informasiya müharibəsi kimi 21






Ordu və zəka: yeni model hərbi xidmət 24

Hərbi təhsil ordunun sütunudur 26





Süni intellekt və jurnalistka 32

Zəfərə gedən yol təminatdan keçir 34





Hərbi Hava Qüvvələri 107 il 38

# Azərbaycan Respublikası müdafiə nazirinin Novruz və Ramazan bayramları münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov



Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar, dövlət qulluqçuları və mülki işçilər!

Sizi xalqımızın milli-mənəvi və mütərəqqi islami dəyərlərini özündə yaşadan Novruz bayramı və mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, çətin, eyni zamanda, şərəfli və müqəddəs xidmətinizdə uğurlar arzulayıram.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində dövlət səviyyəsində qeyd olunan və xalqımızın ən əziz bayramı sayılan Novruz yazın gəlişindən, təbiətin oyanışından xəbər verdiyi kimi, müqəddəs Ramazan bayramı da xalqımızın humanizm prinsiplərinə sadiqliyini, mərhəmət və mənəvi kamillik dəyərlərini özündə təcəssüm etdirir. Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan qədim zamanlardan müasir günümüzədək milli-mənəvi dəyərlərimizə əbədiyaşarlıq qazandıraraq Novruz ənənələrimizi qoruyub saxlayıb. Tarixin ən sərt mərhələlərində belə xalqımız Novruzun gəlişini, müqəddəs Ramazan bayramını özünəməxsus coşqu və yüksək əhval-ruhiyyə ilə qeyd edib. Odlar yurdu Azərbaycanda Novruz və Ramazan bayramlarının ənənələrinin yaşanması xalqımızın milli-mənəvi dəyərlərinə bağlılığının bariz nümunəsidir.

Möhtərəm Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində müstəqil respublikamızda vətəndaş həmrəyliyinə nail olunub, ölkəmiz dünya dövlətləri sırasında ən layiqli yerlərdən birini tutub. Bu gün ölkə iqtisadiyyatının dayanıqlı inkişafı təmin edilib, dövlətçilik ənənələrimiz daha da möhkəmlənib. Prioritet istiqamətlərdən hesab edilən ölkəmizin hərbi qüdrətinin və ordumuzun peşəkarlığının daha da artırılması məqsədilə atılan addımlar həyata keçirilən islahatların əsas hissələrindəndir. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət və ordu quruculuğu istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycanın dünyada nüfuzu daha da artmış, xalq-dövlət-ordu birliyi ən yüksək səviyyəyə çatmışdır.

Bu inamlı fəaliyyətlərin məntiqi nəticəsidir ki, Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə 44 günlük Vətən müharibəsində, eləcə də sonrakı döyüş əməliyyatlarında Azərbaycan Ordusunun əsgər və zabitlərinin göstərdiyi qəhrəmanlıqlar, fədakarlıq nümunələri sayəsində 30 ilə yaxın müddətdə düşmən işğalında olan tarixi torpaqlarımız azad edildi. Müzəffər Ali Baş Komandanın inamlı və uzaqgörən siyasəti, qətiyyətli mövqeyi, ordumuzun qüdrəti sayəsində parlaq Qələbə qazandıq, respublikamızın ərazi bütövlüyünü və suverenliyini tam təmin etdik.

Ötən il Bakı şəhərində möhtəşəm şəkildə keçirilən 8 Noyabr – Zəfər Gününün beşinci ildönümünə həsr olunmuş hərbi parad gündən-günə qüdrətlənən Azərbaycan Ordusunun yenilməzliyinin bir daha təsdiqidir.

Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin tarixi Sərəncamı işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı yenidənqurma, bərpa və abadlıq işlərinin aparılmasında mühüm rol oynayacaqdır.

Rəşadətli Azərbaycan Ordusu işğaldan azad olunmuş ərazilərdə Vətənimizin keşiyində mətinliklə dayanmaqla genişmiqyaslı bərpa-quruculuq işlərinin icrasına layiqli töhfələr verməkdədir.

Azərbaycanın müstəqilliyinin qorunması, ərazi bütövlüyünün və suverenliyinin bərpası uğrunda canlarından keçən bütün şəhidlərimizin xatirəsini hər zaman olduğu kimi Novruz və Ramazan bayramları ərəfəsində də dərin hörmət və ehtiramla yad edirik. Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğılarının həlli istiqamətində mühüm addımlar atılır. Şəhidlərin valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları əlamətdar günlər münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram. Arzu edirəm ki, bu mübarək bayramlar gəlişi ilə ölkəmizə əmin-amanlıq, ailələrimizə xoşbəxtlik, süfrələrimizə bol ruzi-bərəkət gətirsin.

Bir daha hər birinizi Novruz və Ramazan bayramları münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

Novruz və Ramazan bayramlarınız mübarək olsun!

## MÜQƏDDƏS RAMAZAN AYI

İslam aləmində Ramazan ayı mənəvi saflaşma, səbir və mərhəmət ayı kimi qəbul olunur. Bu mübarək ay müsəlmanlar üçün yalnız ibadət dövrü deyil, həm də insanın öz mənəvi dünyasına nəzər saldığı, nəfsini tərbiyə etdiyi xüsusi bir zaman kəsiyidir.

Bu ayın əsas mahiyyəti insanın səbrini möhkəmləndirmək, onu mərhəmətə və yardımlaşmaya sövq etməkdir. Eyni zamanda Ramazan ayı cəmiyyət daxilində birlik və həmrəylik ruhunu gücləndirir.

Tarix boyu Ramazan ayı müsəlman cəmiyyətinin mənəvi gücünü nümayiş etdirən bir zaman kimi yadda qalmışdır. Bu ayda səbir, iradə və inam kimi dəyərlər daha da möhkəmlənir. Bu müqəddəs ay həm də insanın xarakterini formalaşdıran mənəvi məktəb kimi səciyyələndirir.



## AZƏRBAYCAN ORDUSUNDA RAMAZAN BAYRAMI

Müasir Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərin qorunması və yaşadılması xüsusi əhəmiyyət daşıyır. Xalqımızın əsrlər boyu formalaşmış dini və mənəvi ənənələri ordumuzda da ehtiramla qarşılanır. Müqəddəs Ramazan ayı bu baxımdan hərbçilərin mənəvi həyatında xüsusi yer tutur. Ramazan ayı ərzində hərbi hissələrdə xidmət edən şəxsi heyətin dini etiqad azadlığına hörmətlə yanaşılır. Oruc tutan hərbçilər üçün müvafiq şərait yaradılır, iftar vaxtlarında birlik və həmrəylik ruhunu əks etdirən süfrələr təşkil olunur. Bu anlar yalnız ibadətin yerinə yetirilməsi deyil, həm də hərbi kollektiv daxilində qarşılıqlı hörmətin, mənəvi bağlılığın və dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edir.



## NOVRUZ BAYRAMI

Novruz - təbiətin oyanışını, həyatın yenilənməsini və zamanın əbədi dövranını təcəssüm etdirən ən qədim bayramlardan biridir. Minilliklərin dərin qatlarından süzülüb gələn bu müqəddəs gün yazda gecə-gündüz bərabərliyi ilə başlayaraq kainatın ahəngini, insanın təbiətlə vəhdətini ifadə edir.

Tarixi kökləri Zərdüştilik dövrünə, hətta daha qədim inanclara gedib çıxan Novruz yalnız bir təqvim hadisəsi deyil, həm də mənəvi-mədəni sistemdir. Od, su, torpaq və yel ünsürləri üzərində qurulan bu bayram insanın daxili saflaşmasını, cəmiyyətin yenilənməsini simvolizə edir. Əsrlər boyu müxtəlif imperiyaların, dövlətlərin və sivilizasiyaların təsiri altında yaşasa da, Novruz öz mahiyyətini itirməmiş, əksinə, hər dövrdə xalqın milli kimliyinin daşıyıcısına çevrilmişdir.

## AZƏRBAYCAN ORDUSUNDA NOVRUZ BAYRAMI

Müasir Azərbaycan Ordusunda Novruz bayramı milli-mənəvi dəyərlərin yaşadıldığı, şəxsi heyətin ruh yüksəkliyinin artırıldığı xüsusi günlərdən biri kimi qeyd olunur. Bu bayram təkcə ənənələrin davamı deyil, həm də hərbi kollektivdə birlik, həmrəylik və mənəvi bağlılığın daha da möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Novruz günlərində hərbi hissələrdə bayram ab-havası hökm sürür. Şəxsi heyət üçün xüsusi silsilə tədbirlər təşkil olunur. Eyni zamanda, bayram günlərində şəhidlərin xatirəsi ehtiramla yad edilir, onların ailələrinə diqqət və qayğı göstərilir.

Silahlı Qüvvələrin Ali Baş Komandanı və Müdafiə Nazirliyi rəhbərliyi tərəfindən şəxsi heyətə ünvanlanan təbriklər, verilən mükafat və təşəkkürlər də bu günlərin əhəmiyyətini daha da artırır. Bu addımlar şəxsi heyətdə motivasiyanı, vətənə sədaqət hissini daha da möhkəmləndirir.

Beləliklə, Novruz bayramı Azərbaycan Ordusunda yalnız bir ənənə kimi deyil, həm də mənəvi gücün, vətənpərvərlik ruhunun və milli kimliyin təntənəsi kimi yaşadılır. Bu bayram hərbi xidmətlə milli dəyərlər arasında sarsılmaz bir bağ yaradır və ordunun ruhunu daha da yüksəldir.






# Azərbaycan Ordusunda kibertəhlükəsizlik

Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzi
Çavuş Namiq Pənahov

> **”Dövlət orqanlarının, hər bir təşkilatın səmərəli işləməsi üçün rabitə çox mühüm bir vasitədir.**
>
> **HEYDƏR ƏLİYEV**
> **Ümummilli Lider**

Kibertəhlükəsizlik - müasir dövrdə ən kritik təhlükəsizlik istiqamətlərindən biridir. Bu anlayış məlumatların, informasiya sistemlərinin, şəbəkələrin və ümumilikdə rəqəmsal infrastrukturun icazəsiz girişlərdən, məlumat sızmalarından, elektron xidmətlərin dayandırılmasından qorunmasını əhatə edir.

Müharibə məfhumu əsasən fiziki döyüş meydanlarında aparıldığını nəzərə alsaq belə, bu gün münaqişələrin çox mühüm hissəsi virtual məkanda, yəni kibermakanda baş tutur. Bu isə o deməkdir ki, rəqəmsal resurslar ən az hərbi texnika qədər strateji əhəmiyyət qazanıb.

**Bəs, ümumiyyətlə, kibermakan nədir?**

Kibermakan - kompüterlər, internet və rəqəmsal vasitələr arasında yaranan virtual informasiya mühitidir. Bu məkanda insanlar virtual olaraq əlaqə qurur, məlumat paylaşır, işləyir və öyrənirlər. Kibermakan fiziki olaraq görünməsə də, həyatımızın hər sahəsinə təsir edən böyük bir rəqəmsal dünyadır. Sosial şəbəkələrdən tutmuş elektron poçta, bulud xidmətlərindən onlayn oyunlara qədər bütün rəqəmsal fəaliyyətlər məhz kibermakanda baş verir. Kibertəhlükəsizlik ki-

bermәkanda mәlumat, sistem vә şәbәkәlәrin tәhlükәsizliyini qoruyan müdafiә mexanizmlәridir.

Hәrbi strukturlar üçün kibertәhlükәsizliyin әhәmiyyәti daha böyükdür. Çünki bu qurumlar yalnız döyüş planlarını deyil, hәm dә yüksәk mәxfilik dәrәcәsinә malik mәlumatları, komanda-idarәetmә vasitәlәrini, rabitә sistemlәrini, idarәetmәnin bütün mәrhәlәlәrini rәqәmsal platformalar vasitәsilә hәyata keçirirlәr. Burada baş verәcәk әn kiçik pozuntu belә әmәliyyatın uğursuzluğu, koordinasiyanın itmәsi vә milli tәhlükәsizlik üçün ciddi risklәrin yaranması ilә nәticәlәnә bilәr. Bir sözlә, kibertәhlükәsizlik müdafiә sisteminin strateji sütunlarından birinә çevrilib.

**Kibermәkanda әn çox rast gәlinәn kibertәhdidlәr.**

Hәrbi strukturların üzlәşdiyi kibertәhdidlәr çoxşaxәlidir vә hәr biri ciddi nәticәlәr doğura bilәr. Әn geniş yayılanlar bunlardır:

- Fişinq hücumları: Aldadıcı e-poçtlar, saxta linklәr vasitәsilә mәlumat әldә etmәk cәhdlәri.
- Zәrәrli proqramlar: Viruslar, troyanlar, casus proqramları. Zәrәrli proqramlar kompüterlәrә sızaraq mәlumatların oğurlanmasına vә sistemlәrin sıradan çıxmasına sәbәb ola bilir.
- DDoS hücumları: Hәdәf serverlәrin saxta sorğularla hәddindәn artıq yüklәnmәsi ilә rabitә vә komanda-idarәetmә sistemlәrinin iflic edilmәsi.
- Mәlumat sızması: Mәxfi sәnәdlәrin oğurlanması, deşifrә edilmәsi vә ya manipulyasiya olunması müdafiә konsepsiyasının ciddi şәkildә pozulmasına gәtirib çıxarır.
- Sistem müdaxilәsi: Aidiyyәti olmayan şәxslәrin komanda-idarәetmә sistemlәrinә birbaşa giriş әldә etmәsi.





SİPƏR

**Müasir ordu üçün informasiya tәhlükәsizliyi prioritet sahәyә çevrilib.**

Bu gün müasir ordularda qoşunların, o cümlәdәn hәrbi birlik, birlәşmә, hissә vә bölmәlәrin idarә olunması, döyüş әmәliyyatlarının planlaşdırılması, koordinasiyası, analiz vә qәrarvermә proseslәri rәqәmsal platformalar üzәrindәn aparılır. Artıq heç bir ordu yalnız fiziki resurslarla fәaliyyәt göstәrmir.

Әgәr bu rәqәmsal mühitdә zәiflik olarsa, qarşı tәrәf sistemi mәqsәdli tәhrif edә, yanlış mәlumat ötürә, әmәliyyat planlarını aşkarlaya vә ya idarәetmә zәncirini tamamilә dağıda bilәr.

Bu sәbәbdәn informasiya tәhlükәsizliyi müasir ordular üçün tәkcә prioritet deyil, bәzәn әn kritik müdafiә xәtti dә hesab edilir.

**Kiberhücumların formaları vә onların hәrbi әmәliyyatlara tәsiri.**

Kiberhücumlara iki böyük kateqoriyada baxıla bilәr: texniki vә psixoloji tәsir formalarına görә.

Texniki hücumlara misal olaraq: şәbәkә infrastrukturunun sıradan çıxarılması; mәlumat bazalarının mәhv edilmәsi; idarәetmә sistemlәrinin әlә keçirilmәsi; rabitәnin bloklanması. Psixoloji tәsir vasitәlәri isә dezinformasiya kampaniyaları, saxta xәbәrlәr, ictimai rәyin manipulyasiyası ilә hәyata keçirilir.

Hәrbi әmәliyyatlar zamanı bu cür hücumlar koordinasiyanı poza, qәrar qәbul etmә mexanizmini lәngidә, әmәkdaşlıq imkanlarını mәhdudlaşdıra bilәr. Bәzәn bir uğurlu kiberhücum fiziki әmәliyyat başlanmadan belә düşmәn ordusunun dayanmasına sәbәb olur.

Azәrbaycan Ordusunda kibertәhlükәsizliyin tәmin edilmәsi mәqsәdilә üçlü yanaşma tәtbiq edilir. İngilis dilindә “People – Process – Technology” deyilir.

**Azərbaycan Ordusunda kibertəhlükəsizlik bölmələri**

Azərbaycan Ordusunda 2022-ci ilin iyul ayından Kibertəhlükəsizlik Mərkəzi fəaliyyət göstərir. Orduda istifadə olunan informasiya-kommunikasiya texnologiyaları sistemlərinin qorunması üçün Mərkəz tərəfindən şəbəkə trafiki 7/24 izlənilir, anomaliyalar aşkarlanır, mövcud və mümkün hücumlar analiz edilir, cavab tədbirləri görülür. Mərkəzin server infrastrukturu süni intellekt əsaslı analiz mexanizmlərinin tətbiqi ilə kibertəhlükəsizlik sahəsində daha dayanıqlı və müasir kibermüdafiə standartlarının formalaşdırılmasına töhfə verir.

Görülən tədbirlər Ordunun daxili sistem və şəbəkələrini yalnız kənar müdaxilədən deyil, həm də yanlış istifadə və daxili risklərdən qoruyur.

Mərkəzin heyəti yüksək ixtisaslı analitiklər, proqramçılar, kibertəhlükəsizlik mütəxəssisləri və süni intellekt üzrə mütəxəssislərdən ibarət komandalardır.










SİPƏR

**Kiberhücumun qarşısı necə alınır**

Kibertəhdid və təhlükələrin kiberkəşfiyyatı aparılır, proqnozlaşdırılır, qiymətləndirilir və müvafiq qabaqlayıcı tədbirlər görülür. Müntəzəm testlər, təhlükəsizlik yeniləmələri, risk analizi və süni intellekt əsaslı monitorinq sistemi burada mühüm rol oynayır.

Hücum baş verərsə "insident cavab planı" işə salınır. Bu zaman:

1. Təhlükənin mənbəyi müəyyən edilir.
2. Zərərli trafik izolyasiya olunur.
3. Kibertəhdid aradan qaldırılır.
4. Bərpa əməliyyatı aparılır.
5. Hücumun analizi və gələcək üçün dərslər çıxarılır.



# İnformasiya cəbhəsində də qalibik

Kapitan Fuad Cəfərov



Modern dövrdə savaş yalnız döyüş meydanında deyil, informasiya məkanında da aparılır. Daim yenilənən və innovativ təkamül dövrü yaşayan dünyamızın son illərinə nəzər salsaq görərik ki, informasiya müharibəsi (qarşıdurması) getdikcə daha təsiredici və təhlükəli bir hal almağa başlayır. İnformasiya müharibəsinin (qarşıdurmasının) beynəlxalq səviyyədə konkret tərifinin olmaması və onunla bağlı vahid sistemin qurulmamasına baxmayaraq, dünya miqyasında ciddi təhdid vasitəsi kimi xarakterizə olunur. Dünyanın aparıcı güc sahibi ölkələri tərəfindən araşdırılan və yeni üsul-vasitələrinin öyrənildiyi informasiya müharibəsi məfhumu bu gün fiziki, hərbi, siyasi və iqtisadi güc və təzyiqdən də üstün sayılır. Böhran dövründə olmaqla yanaşı, pre və ya post-konflikt zamanı da əsas silahlardan biri sayılan informasiya texnologiyaları müasir qlobal həyatımızın ayrılmaz hissəsinə çevrilib.

Əvvəlcə informasiya müharibəsinin (qarşıdurmasının) nə olduğunu anlamağa çalışaq. İnformasiya müharibəsi - iki və ya daha çox ədavətli və ya bir-birini xoşlamayan qüvvələrin informasiya məkanında (məlumatın yaradıldığı, yayıldığı, ötürüldüyü, qəbul edildiyi mühit və ya platforma) qarşı tərəfi üstələməsi məqsədi ilə həyata keçirdiyi planlı və məqsədyönlü fəaliyyətlər toplusudur. İnformasiya müharibəsinin aparılmasının müxtəlif məqsədləri ola bilər: qarşı tərəfin mövqeyini zəiflətmək, daxili və beynəlxalq ictimai rəyə təsir etmək, öz maraqlarını düzgün kimi təqdim etmək, qarşı tərəfin təbliğatını uğursuzluğa məruz qoymaq və s. Məlumdur ki, informasiya texnologiyalarının və kommunikasiya vasitələrinin sürətli tərəqqisi cəmiyyətdə informasiyanın rolunu artırmaqla, onun effektivliyini əhəmiyyətli maddi resurslardan da vacib etdi.





Müasir dövrdə informasiya texnologiyalarının inkişafı məlumatın əldə olunmasını tezləşdirməklə yanaşı, onun yayılmasını da asanlaşdırır. Belə olan halda da operativlik bu məsələdə ön plana çıxır və informasiya müharibəsinin mühüm tərkib hissəsi kimi dövlətin, qurumun və ya cəmiyyətin özünü ifadə etməsi baxımından əsas silaha çevrilir. Günümüzün əsas və həlledici aləti olan qlobal internet informasiya mühitimizin genişlənməsində və məlumat əlçatanlığının təmin edilməsində mühüm vasitədir. İnformasiya müharibəsi (qarşıdurması) günümüzdə bu alətlərdən ibarətdir: kütləvi informasiya vasitələri - televiziya, radio, qəzet; sosial şəbəkələr - "Facebook", "X" (köhnə "Twitter"), "YouTube", "Instagram" və digərləri; beynəlxalq arenalar - dünyanın aparıcı qurumlarının iştirakı ilə keçirilən böyük tədbirlərdə verilən bəyanatlar və göstərilən rəsmi sənədlər; rəqəmsal texnologiyalar - xüsusi botlar, süni intellekt məhsulları, feyk (saxta) məlumatlar və s.; psixoloji təsir üsulları - şayiə uydurmaq, qorxutma, manipulyasiya və emo-







SİPƏR




# İNFORMASİYA ÜSTÜNLÜYÜ ZƏFƏRDİR

sional təsir vasitələri. "İnsan ən sağalmaz xəstəliyin belə öhdəsindən psixoloji üstünlük sayəsində gəlməyə qadirdir" ifadəsi bu üsulun vacibliyini izah edir.

İnformasiya müharibəsindən danışarkən süni intellektin bu sahəyə təsirini xüsusi vurğulamaq lazımdır. Süni intellektin getdikcə daha sürətli, miqyaslı və hədəfli hal alması informasiya cəbhəsinin də yenilənməsini şərtləndirir. Süni intellekt, neyroşəbəkə gündəlik fəaliyyətimizi və iş həyatımızı asanlaşdırmaqla yanaşı, ictimai rəyə də birbaşa təsir edə biləcək elektron vasitədir. Necə deyərlər, süni intellekt günümüzdə həm silah, həm də qalxandır. Süni intellektlə yayılan dezinformasiya, “fake” foto, video və audio materiallar kütlənin yanlış istiqamətləndirilməsinə və məlumatlı olmayan şəxslərin asanlıqla aldanmasına gətirib çıxarır. “Deepfake”lər süni intellektə əsaslanan texnologiyadır; bununla real insanların görünüşü və bədən dili, səs tonu istifadə edilərək saxta video, audio və foto resurslar hazırlanır, sonra müxtəlif platformalarda paylaşılır və bunu realdan fərqləndirə bilməyən şəxslər həqiqət kimi qəbul edirlər. Bu, nəticə etibarı ilə çox təhlükəli tendensiyaya çevrilməkdədir. Real məlumatla saxta məlumatı ayırd etmək gün keçdikcə çətinləşir. Bununla mübarizə üçün cəmiyyətin maarifləndirilməsi və yalnız real faktlara və rəsmi mənbələrə istinad edilməsi mütləqdir; bu, dövlətin müdafiə və preventiv fəaliyyətlərini vaxtında və düzgün qurması nəticəsində mümkündür. Texnoloji innovasiyanın düzgün tətbiqi, şəffaf və operativ kommunikasiya sisteminin qurulması və cəmiyyətin media savadlılığının artırılması informasiya müharibəsinə qarşı ən effektiv üsul və vasitələrdir. İnformasiya müharibəsindən danışarkən informasiya blokadasını da qeyd etmək lazımdır. İnformasiya blokadası bir mövzunun və ya problemin qəsdən görünməz edilməsi, haqq səsinin boğulması və ya həqiqətlərin gizlədilməsidir. Məlumdur ki, Azərbaycan ötən əsrin sonlarında bizi istəməyən qüvvələr tərəfindən informasiya blokadasına məruz qalmışdır.

2020-ci ilin 27 sentyabrından başlayan və ordumuzun haqq savaşı olan Vətən müharibəsi təkcə döyüş meydanında deyil, informasiya cəbhəsində də qazanılan zəfərlə taclandı. Tarixi ərazilərimizin azadlığına qovuşduğu, haqq-ədalətin bərpa olunduğu o günlərdə informasiya müharibəsi də gedirdi. İnformasiya sahəsində də çevik, ardıcıl və dəqiq strategiya həyata keçirilirdi. Yalnız rəsmi məlumatların operativ şəkildə yayılması, döyüş əməliyyatlarının real kadr və hesabatlara uyğun ictimaiyyətə təqdim olunması və dezinformasiyaların operativ susdurulması ölkəmizə informasiya üstünlüyü verdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya savaşı gedən meydanlarda qətiyyətlə və inamla Azərbaycanın mənafeyini müdafiə etməklə, xalqımızın haqlı mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırırdı. Həmin ərəfələrdə anti-Azərbaycan mövqeli və çirkin niyyətlərini nümayiş etdirən qüvvələr özünü büruzə verirdi. Lakin dövlət başçısının hər bir sualı təkzibolunmaz reallıqlarla və yüksək dəqiqliklə cavablandırması, cavabların faktlarla əsaslandırılması və Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasına və informasiya müharibəsində möhkəm mövqeyə malik olmasına misilsiz töhfə verirdi. Həmin ərəfələrdə dünya "Qarabağ Azərbaycandır!" reallığını qəbul etməyə başladı, çünki Azərbaycan əsgəri xalqının misilsiz inamı və Ali Baş Komandanın dönməz qətiyyəti ilə irəli gedirdi - bu savaş onun haqq savaşı idi.









# Psixoloji kəşfiyyat informasiya müharibəsi kimi

Mayor Amil Məhərrəmoğlu

Rəqəmsal texnologiya sayəsində bu gün bir çox məlumatı rahatlıqla öyrənmək, görülən işləri təhlil etmək və nəticələr çıxarmaq mümkündür.

Fərdləri, qrupları, təşkilatları, cəmiyyətləri tədqiq etmək, öyrənmək metodları çoxşaxəlidir. Artıq klassik kəşfiyyat üsulları bir o qədər də gündəmdə deyil. Çünki müasir insan fərqinə varmadan hər addımında maraqlı tərəf üçün informasiya ötürücüsünə çevrilib.

Bəs kəşfiyyat nədir? Ondan nə məqsədlə və harada, kimlər istifadə edirlər? Kəşfiyyat məlumatı nəyə deyilir?

**Kəşfiyyat məlumatı** - xüsusi yollarla toplanan, təhlil edilən və qərar qəbuletmə prosesində istifadə olunan məxfi və strateji əhəmiyyətli olub rəqibin, düşmənin və ya hədəf obyektinin niyyətləri, imkanları, fəaliyyəti və zəif cəhətləri haqqında informasiyadır.

Kəşfiyyat məlumatları müxtəlif məqsədlərlə və fərqli sahələrdə, müxtəlif qurum və şəxslər tərəfindən istifadə edilir. Məsələn:





- Təhlükəsizlik və müdafiə, strategiya qurmaq, siyasi və ya iqtisadi sferada istiqamət seçmək, risklərin azaldılması, təhdidlərə qarşı hazır olmaq, terror və cinayətlə mübarizə aparmaq məqsədilə həyata keçirilir;
- Hərbi, siyasi, milli təhlükəsizlik, iqtisadi, eləcə də texnologiya sahələrində istifadə olunur;
- Hərbi qərargahlar, təhlükəsizlik və əks-kəşfiyyat qurumları, hökumətlər, hüquq-mühafizə orqanları, böyük kooperativ şirkətlər tərəfindən istifadə edilir.

**Ekspertlər kəşfiyyatı 5 əsas kateqoriyaya bölürlər:**

1. Hərbi kəşfiyyat - düşmənin silahlı qüvvələri haqqında məlumatlar;
2. Elektron kəşfiyyat - rabitə, radiodalğalar, müxtəlif radar siqnallarının tutulması;
3. Peyk kəşfiyyatı - kosmik vasitələr, foto, video, termal görüntülər;
4. İnsan resurslu kəşfiyyat - casus şəbəkəsi, yerli mənbələr və s;
5. Kiber kəşfiyyat - rəqəmsal infrastrukturlar, media subyektləri, sosial şəbəkələr və müxtəlif tətbiqlər vasitəsilə həyata keçirilir.

*"Ən böyük zəfər döyüşmədən, düşməni məhv etməkdir", bu sözlər Sun Tzunun "Müharibə sənəti" əsərində yer alır.*

**Müasir kəşfiyyat vasitələri:**

1. Pilotsuz uçuş aparatları (PUA);
2. Peyk sistemləri;
3. Termal cihazlar;
4. Sosial media;
5. Süni intellekt;
6. Radiodinləmə və deşifrə texnologiyaları.




**Psixoloji kəşfiyyat** - fərdlərin və əhali qruplarının düşüncə tərzini, emosional reaksiyalarını, motivlərini və zəifliklərini anlamağa yönəlmiş fəaliyyətlər toplusudur. Bu məlumatlardan düşmənin qərarvermə prosesini təxmin etmək, manipulyasiya etmək və ya sosial-psixoloji əməliyyatları həyata keçirmək üçün istifadə olunur. Kəşfiyyat apararkən qarşı tərəfin imkan və qabiliyyətləri nəzərə alınır. Zəif cəhətlərini - ona haradan zərbə vurmağı bilmək, güclü cəhətləri isə - onun sizi həmin sahələrə çəkib aparmasına, döyüşü həmin meydanlara keçirməsinə imkan verməmək üçün bilmək lazımdır. Əldə olunan informasiya şəxsdə psixoloji güvən və rahatlıq hissi yaradır. Psixoloji kəşfiyyat (əməliyyatlar) daha çox iqtisadi və siyasi sahələrdə tətbiq olunur. Təbii ki, müharibələr zamanı istifadəsi istisna edilmir.

# Ordu və zəka: yeni model hərbi xidmət

Kursant Tamilla Hüseynli




## Müasir hərbi yanaşmada intellektual potensialın rolu

Rəqəmsal texnologiyaların sürətli inkişafı müasir orduların fəaliyyət prinsipini köklü şəkildə dəyişir. Artıq hərbi güc təkcə fiziki hazırlıqla deyil, eyni zamanda bilik, analitik düşüncə və elmi potensialla ölçülür. Azərbaycan Ordusunda tətbiq olunan yeni xidmət konsepsiyası da bu qlobal tendensiyanın tərkib hissəsidir. Müdafiə Nazirliyinin təşəbbüsü ilə yaradılan İntellektual Qabiliyyətli Bölmələr gənclərin elmi və intellektual imkanlarının dövlətin müdafiə maraqları naminə səmərəli istifadəsini hədəfləyir.

## İntellektual qabiliyyətli bölmələrə cəlbetmə meyarları

Bu bölmələrə yüksək akademik göstəricilərə malik çağırışçılar cəlb olunur. Buraya ali təhsil müəssisələrinə qəbul imtahanında 600 və daha yuxarı bal toplamış gənclər, beynəlxalq və respublika fənn olimpiadalarının, eləcə də nüfuzlu beynəlxalq müsabiqə və yarışların qalibləri daxildir. Eyni zamanda, beynəlxalq reytinqlərdə ilk 500-lükdə yer alan xarici ali təhsil müəssisələrinin bakalavriat və magistratura proqramlarını bitirmiş çağırışçılar da bu kateqoriyada qiymətləndirilir. Bu seçim meyarları orduda intellektual resursların məqsədyönlü şəkildə formalaşdırılmasına xidmət edir.

## Xidmətin təşkili və elmi-praktiki fəaliyyət

Yeni konsepsiyanın əsas mahiyyəti ondan ibarətdir ki, yüksək *akademik* nəticə əldə etmiş gənclər hərbi xidmət müddətində yalnız klassik əsgər funksiyalarını icra etmir, paralel olaraq bilik və bacarıqlarını praktik fəaliyyətə tətbiq etmək imkanı qazanırlar. İntellektual qabiliyyətli bölmələrdə xidmət edən çağırışçılar gənc əsgər hazırlığını başa vurduqdan sonra xidmətlərinin əsas hissəsini ali təhsillərinə uyğun *yerlərdə* davam etdirirlər. Bu müddət ərzində onların hərbi xidmət borcu yerinə yetirilir, eyni zamanda elmi və analitik potensiallarından istifadə olunur.

## Gələcək perspektivlər və nəticə

Yeni xidmət modeli gələcək üçün mühüm perspektivlər vəd edir. İntellektual qabiliyyətli bölmələr gənclərin hərbi xidmət başa çatdıqdan sonra zabit və ya mülki mütəxəssis kimi orduda qalmasına stimul yaradır. Beləliklə, Azərbaycan Ordusunda peşəkar və bilik əsaslı kadr potensialı formalaşır.

Nəticə etibarilə, intellektual qabiliyyətli bölmələr müasir hərbi yanaşmanın bariz nümunəsidir. Bu konsepsiya Azərbaycan Ordusunda insan kapitalına verilən dəyəri nümayiş etdirir və ordunun gələcək inkişafında elmin, texnologiyanın və intellektual gücün həlledici rol oynadığını bir daha təsdiqləyir.

## Hərbi təhsil ordunun sütunudur

Baş leytenant Elçin İmanov
Gizir Mövlan Nəsirov

Müstəqil, müasir dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev hər zaman ən mürəkkəb və çətin vəziyyətlərdə düzgün yolu tapmağı bacarırdı. Azərbaycanlı olması ilə fəxr edən Ümummilli Lider bütün ömrünü xalqımızın maddi rifah halının yaxşılaşdırılmasına, güc və qüvvəsini isə dövlətimizin quruculuğuna sərf etmişdir. Ölkəmizdə hakimiyyətə gəldiyi ilk günlərdən Ümummilli Lider Heydər Əliyevi düşündürən əsas məqsədlərdən biri də ordu quruculuğu məsələsi olmuşdur. Ordu quruculuğunu şərtləndirən əsas amillərdən biri isə onun peşəkar hərbçi kadrları ilə komplektləşdirilməsi idi.

Müstəqilliyimiz bərpa edildikdən sonra bütün sahələrdə olduğu kimi, ordu quruculuğu, o cümlədən hərbi təhsil sahəsində də geniş islahatlar aparılmağa başlanıldı. Hərbi təhsil prosesi yeni proqramlar əsasında davam etdirildi, hərbçi kadrların hazırlığı üzrə fəaliyyətlər daha da təkmilləşdirildi.

> **...Gənc kadrların hazırlanması prosesi bizim gələcəyimizi şərtləndirən amildir. Hər bir sahədə, o cümlədən hərbi sahədə gənc peşəkar kadrlara ehtiyac vardır.**
>
> **Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev**




SİPƏR



**Qadın kursantların yenidən qəbulu – tarixi addım**

Uzun müddət fasilədən sonra 2025-2026-cı tədris ilində Heydər Əliyev adına Hərbi İnstituta qadın kursantlar da qəbul edilib. Qalib Azərbaycan Ordusunun sıralarında qadınların zabit adını daşımaq imkanına sahib olmaları dövlətimizin inkişafı və cəmiyyətimizin tərəqqisi baxımından qürurvericidir. Bu Azərbaycan Ordusunda gender bərabərliyi prinsiplərinin tətbiqində tarixi mərhələdir.

Tarix boyu Azərbaycan qadını dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və Vətənin müdafiəsi işində fəal iştirak edib. Dövlət müstəqilliyimiz yenidən bərpa edildikdən sonra Azərbaycan qadınının cəmiyyətdə əvəzsiz rolu bir daha təsdiqləndi. Mərhəməti, humanistliyi, xeyirxahlığı və vətənpərvərliyi ilə fərqlənən Azərbaycan qadını milli dövlət quruculuğu prosesi ilə yanaşı, ordu quruculuğu prosesində də yaxından iştirak edir. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə qadınlarımız da iştirak edib, fədakarlıq nümunələri göstəriblər.

Bu gün Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən, həmçinin mülki işlərdə çalışan qadınlarımız Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirirlər.

Heydər Əliyev adına Hərbi İnstitutda təhsil və tədris prosesi, o cümlədən qadın kursantların gündəlik fəaliyyəti, həmçinin sosial-məişət şəraiti ilə yaxından tanış olduq. Əvvəlcə Hərbi institutun zabiti polkovnik-leytenant Vüqar Məmmədovla həmsöhbət olduq. Zabit təhsil müəssisəsi haqqında məlumat verərək qeyd etdi ki, Hərbi institutu bu günədək bitirən yüzlərlə, minlərlə gənc "leytenant" hərbi rütbəsində ordu sıralarında xidmətə başlayıb, sonralar torpaqlarımızın azadlığı və suverenliyi uğrunda gedən döyüş əməliyyatlarında böyük hünər və rəşadət nümunələri göstərib.

"Biz bu gün burada təhsil alan kursantlara dünənki qəhrəmanlarımızın sabahkı davamçıları kimi baxırıq. Ona görə də təcrübəli, eyni zamanda, bilikli zabit və professor-müəllim heyəti tərəfindən kursantlara hərbi biliklər aşılanır. Tədris prosesi yenilənmiş proqramlar, metodiki yanaşmalar və qazanılan təcrübələr nəzərə alınmaqla keçirilir. Uzun və şərəfli yolun yolçusu olan kursantlara Hərbi institutda hərbi biliklərlə yanaşı, tariximiz də öyrədilir. Əminik ki, onlar burada öyrəndiklərini gələcək xidmət yerlərində tətbiq edəcək, Azərbaycan Ordusunun qüdrətlənməsi naminə əllərindən gələni əsirgəməyəcəklər".









Hərbi institutun kursantlarının gündəlik fəaliyyətindən danışarkən onların fiziki hazırlıq saatlarını da mütləq qeyd etməliyik. Günün nizam qaydalarına uyğun olaraq keçirilən fiziki hazırlıq məşğələləri kursantların sağlamlıqlarının möhkəmləndirilməsinə mühüm təsir göstərir. Nə qədər fiziki hazırlıqla məşğul olarsansa, bir o qədər möhkəm, güclü və sağlam olarsan, verilmiş tapşırıqları daha çevik və cəld yerinə yetirərsən.

Hərbi institutda keçirilən fiziki hazırlıq məşğələlərində məhz bu amillər əsas götürülür. Tədris ocağında kursantların fiziki inkişafı üçün müxtəlif idman dərnəkləri də fəaliyyət göstərir. Burada kursantlar idmanın cüdo, karate, güləş, kikboksinq və digər növləri ilə məşğul olurlar.









# HƏRBİ TƏHSİL GÜCLÜ ORDUNUN TƏMƏLİDİR




**Hərbi xidmətlə ilk tanışlıq sırada olur**

Hərbi qulluqçunun silahdan məharətlə istifadə etməyi bacarması ilə yanaşı, onun nizam-intizamı da başlıca şərtdir. Deyildiyi kimi, nizam-intizam sıradan başlanır. Hərbi xidmətlə ilk tanışlıq da məhz sırada olur. Ordu sıralarına daxil olan hər kəsə sıranın müqəddəsliyi izah olunur. Nizam-intizamın, verilən əmr və tapşırıqlara sözsüz əməl etməyin, eləcə də digər intizam xarakterli davranışların əsası məhz sıra hazırlığı məşğələlərində qoyulur.

**Sosial-məişət şəraiti daim yüksək səviyyədə saxlanılmalıdır**

Kursantların digər hazırlıqları ilə yanaşı, onların məişət şəraitini də mütləq vurğulamalıyıq. Çünki döyüş və mənəvi-psixoloji hazırlıq kursantların məişət şəraiti ilə sıx bağlıdır. Hərbi institutun yeməkxanası müasir tələblərə uyğun avadanlıqlarla təmin edilib. Tədris ocağının şəxsi heyətinin bütün fəaliyyəti və təminatı kimi, sağlam və yüksək kalorili yeməklərlə qidalanması da ciddi nəzarətdə saxlanılır.




# Süni intellekt və jurnalistika

Sevinc Quliyeva

**Süni intellekt (Sİ) son illərdə həyatımızın bir çox sahələrinə nüfuz etdiyi kimi, jurnalistikanın da forması və funksiyasına təsir etməyə başlayıb. Belə ki, xəbərin toplanmasından başlamış məqalənin yazılmasına, faktların yoxlanmasından oxucu analizinə qədər bir çox proseslərdə süni intellekt texnologiyalarından istifadə getdikcə artır.**

Dünyanın bir çox beynəlxalq media orqanlarında - BBC, “Reuters”, “The Washington Post” artıq avtomatik xəbər generasiya sistemindən istifadə edilir. Bu texnologiyalar jurnalistin rutin və təkrarlanan işlərini - hava durumu, maliyyə hesabatları, idman statistikası və ya təbii fəlakətlər kimi sahələrdə xəbərin yazılmasının öhdəsindən gəlir ki, bu da insan - jurnalistə daha dərindən araşdırmalar, müsahibələr, analitik yazılar üzərində işləmək imkanı verir.

Bugünkü reallıq göstərir ki, süni intellekt artıq xəbər istehsalında aktiv rol oynayır. Avtomatik xəbər yazan alqoritmlər, sosial mediada trendləri analiz edən sistemlər və faktları yoxlayan süni zəka proqramları bir çox beynəlxalq xəbər agentliklərinin gündəlik fəaliyyətinə daxil edilib. “The Washington Post”un "Heloqraf" adlı süni intellekt proqramı idman və seçki xəbərlərini yazmaq üçün istifadə olunur. BBC isə məlumat axınını süzgəcdən keçirib analiz edən botlardan faydalanır.

Süni intellekt gələcəkdə hərbi jurnalistika üçün geniş perspektivlər də vəd edir. Bu baxımdan hərbi jurnalistlərin süni intellekt alətləri ilə işləmək üçün texniki bacarıqlara yiyələnməsi zəruridir. Ümumiyyətlə, gələcəkdə normativ və hüquqi çərçivədə Sİ-nin hərbi jurnalistikada istifadəsinə dair beynəlxalq hüquqi və etik qaydalar hazırlanmalı, mülki və hərbi Sİ-nin tətbiqlərinin sərhədləri aydın şəkildə müəyyənləşdirilməlidir. Xüsusilə müharibə şəraitində Sİ-dən istifadəyə dair beynəlxalq etik kodekslərin hazırlanması zəruridir. Düşünürük ki, gələcəyin jurnalistikasında insan və texnika əməkdaşlıq etməlidir. Süni intellekt jurnalistikada yerini yox, rolunu dəyişməlidir. Bunun üçün həm jurnalistika, həm media idarəçiləri bu texnologiyanı öyrənməli, güclü və zəif tərəflərini dərk etməlidirlər. Eyni zamanda, hüquqi və etik mexanizmlərin hazırlanması da vacibdir.

Süni intellektin bəzi jurnalistlərin funksiyalarını əvəz etməsi onların gələcək peşəkarlığı üçün narahatlıq yarada və ya Sİ alətləri jurnalistin bacarıqlarını tamamlayan vasitə kimi də istifadə edilə bilər. İnsanın zəkası və süni intellektin funksiyaları düzgün balanslaşdırılmalıdır. Bu birlik yeni imkanlar, həm də ciddi məsuliyyətlər yaradacaq. Sİ-nin doğru tətbiqi jurnalistin təhlükəli şəraitdə və ərazilərdə daha effektiv işləməsinə imkan verəcək.







# Zəfərə gedən yol təminatdan keçir

Baş leytenant İbrahim Məmmədbəyov
Çavuş Namiq Pənahov

Anbar və saxlanclarda sükut hökm sürür. Burada nə atəş səsi var, nə də təlim meydanlarının gurultusu. Amma bu sükutun içində ordunun döyüş qabiliyyətini formalaşdıran ən mühüm mexanizmlərdən biri işləyir. Səliqə ilə düzülmüş saxlanc və anbarlar, çeşidlənmiş ləvazimatlar, dəqiq planlaşdırılmış qəbul və buraxılış prosesi bir həqiqəti açıq şəkildə göstərir: döyüş meydanında qazanılan üstünlük çox zaman arxa cəbhədə, göz önündə olmayan bu məkanlarda hazırlanır. Müasir ordular üçün təminat sadəcə yardımçı sahə deyil, döyüş gücünün ayrılmaz və həlledici tərkib hissələrindəndir.

Maddi-texniki təminat silah-sursatla yanaşı, şəxsi heyətin əşya-əmlak, geyim, ərzaq, yanacaq, tibbi vasitələr və məişət ləvazimatları ilə fasiləsiz təmin edilməsi başa düşülür. Bu bütöv bir sistemin hər hansı bir həlqəsində yaranan boşluq döyüş tapşırıqlarının icrasına birbaşa təsir göstərə bilər. Bu baxımdan maddi-texniki təminat sistemi döyüş meydanında nəticəni müəyyən edən əsas amillərdən biridir. Müasir müharibələrdə logistikanın çevikliyi və təminatın keyfiyyəti strateji əhəmiyyət daşıyır. Bu reallıq nəzərə alınaraq maddi-texniki təminatın bütün istiqamətləri planlı şəkildə inkişaf etdirilir və müasir tələblərə tam şəkildə cavab verir.

SİPƏR





### Üç dayaqlı sistem: standart, nəzarət, çeviklik

Maddi-texniki təminatın səmərəliliyi təsadüfi amillər üzərində qurulmur. Bu sahədə uğur üç əsas prinsipin düzgün tətbiqindən asılıdır.

**1. Standartlaşma.** Orduda təminat məsələləri normativ sənədlər, qaydalar və uzunmüddətli planlama əsasında həyata keçirilir. Hər bir geyim növü, avadanlıq, ərzaq məhsulu və məişət ləvazimatı əvvəlcədən müəyyən olunmuş standartlara cavab verməlidir. Bu standartlar həm keyfiyyəti, həm də bütün bölmələr üzrə vahidliyi təmin edir.

**2. Keyfiyyətə nəzarət.** Maddi-texniki təminatda olan vasitələrin real xidmət şəraitinə uyğunluğu, davamlılığı və təhlükəsizliyi əsas şərtdir. Qəbul prosesindən anbarlarda saxlanmaya, buraxılışdan bölmələrə çatdırılmaya qədər bütün mərhələlərdə nəzarət mexanizmləri mövcuddur.

**3. Çeviklik.** Yüksək dağlıq ərazilər, çətin iqlim şəraiti və uzaq məsafələr təminat sistemindən operativ qərarlar, alternativ həllər tələb edir. Logistika imkanlarının geniş olması, müxtəlif nəqliyyat vasitələrinin istifadəsi və ehtiyatların düzgün planlaşdırılması maddi-texniki təminatın dayanıqlığını artıran əsas amillərdəndir.

**Bu üç prinsipin Azərbaycan Ordusunda real tətbiqini isə Mərkəzi Əşya Bazasında və Mərkəzi Ərzaq Anbarında aydın şəkildə görmək mümkündür.**









# Hərbi Hava Qüvvələri - 107 il

Kursant Tamilla Hüseynli

Vüqar İbadov

Azərbaycan Hərbi Hava Qüvvələri ölkənin hava məkanını qorumaq, strateji və operativ məqsədləri həyata keçirmək üçün yaradılmış mühüm hərbi strukturdur. HHQ Azərbaycan Ordusunun əsas tərkib hissələrindən biri olmaqla, aviasiya bölmələri, hava hücumundan müdafiə vasitələri, radar və radiotexniki sistemlər, eləcə də digər yardımçı qurumları özündə birləşdirir. Müasir dövrdə hava məkanının təhlükəsizliyi dövlətin ümumi müdafiə konsepsiyasının ayrılmaz hissəsi hesab olunur. Bu baxımdan Azərabaycan HHQ-nın üzərinə böyük məsuliyyət düşür.

Azərbaycan HHQ-ları yalnız müdafiə funksiyası ilə kifayətlənmir, eyni zamanda Azərbaycan Ordusunun digər növləri ilə sıx qarşılıqlı fəaliyyət göstərərək birgə əməliyyatların icrasında həlledici rol oynayır. Hava üstünlüyünün təmin edilməsi, kəşfiyyat məlumatlarının toplanması, qoşunların hava dəstəyi və strateji obyektlərin mühafizəsi HHQ-nin əsas vəzifələri sırasında yer alır. Azərbaycan Hərbi Hava Qüvvələri regionda maddi-texniki imkanlar baxımından ön sıralarda yer alır.





# BAXIŞIMIZ DÜZ SƏMAYA

**Hərbi aviasiyanın tarixi kökləri**

Azərbaycan hərbi aviasiyasının əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə - 1919-cu ildə qoyulub. Həmin dövrdə mövcud imkanlar məhdud olsa da, bir neçə aviasiya vasitəsi və pilotun fəaliyyət göstərməsi hava qüvvələrinin formalaşdırılması baxımından mühüm addım idi.

1992-ci ildən etibarən Azərbaycan Hərbi Hava Qüvvələri müstəqil hərbi struktur kimi fəaliyyət göstərir. İlk illərdə maddi-texniki baza və ixtisaslı kadr çatışmazlığı mövcud olsa da, mərhələli şəkildə həyata keçirilən islahatlar nəticəsində HHQ inkişaf etdirilərək müasir döyüş imkanlarına malik çevik və peşəkar qüvvəyə çevrildi.

**Döyüş təcrübəsi və gələcək perspektivlər**

Azərbaycan Hərbi Hava Qüvvələrinin şəxsi heyəti Vətən müharibəsində yüksək peşəkarlıq və döyüş əzmi nümayiş etdirib. HHQ-nin hava üstünlüyünün təmin edilməsində, dəqiq zərbələrin endirilməsində və əməliyyatların uğurla icrasında mühüm rolu olub. Bu təcrübə bir daha sübut etdi ki, müasir müharibələrdə hava qüvvələrinin rolu həlledici əhəmiyyət daşıyır.

Yaranmasının 107-ci ildönümünü qeyd edən Azərbaycan Hərbi Hava Qüvvələrinin şəxsi heyəti bundan sonra da Ali Baş Komandanın istənilən döyüş əmrini yerinə yetirməyə, ölkənin hava məkanının toxunulmazlığını təmin etməyə hər an hazırdır.








| Baş redaktor: | Məsul katib: | Redaktorlar: | Dizayner: | Korrektor: |
|---|---|---|---|---|
| polkovnik Namiq Cavadov | baş leytenant İbrahim Məmmədbəyov | baş leytenant Lalə Kəngərli<br>Sevinc Quliyeva<br>Aynur Bağırova | çavuş Nigar Mirzəyeva | Könül Cəfərzadə |